# İnsan hüquq və azadlıqlarına təminat




Konstitusiya hər bir xalqın sabit və davamlı inkişaf yolunu beynəlxalq hüquq normaları əsasında formalaşdıran ali sənəd olmaqla yanaşı, ayrı-ayrı dövlətlərin siyasi sistemini müəyyənləşdirmiş ümumbəşəri demokratik dəyərlərə, insan hüquq və azadlıqlarına münasibəti özündə ehtiva edir. Zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı ötən əsrin sonlarında müstəqilliyini bərpa etdikdən sonra referendum yolu ilə dövlətçiliyin mühüm atributu olan milli Konstitusiyanı qəbul etmiş, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, eləcə də insan hüquq və azadlıqlarının prioritetliyi dəqiqləşdirilmişdir.

(davamı 10-cu səhifədə)

# İnsan hüquq və azadlıqlarına təminat




(əvvəli 1-ci səhifədə)

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası cəmiyyətin ictimai-siyasi institutlarının fəaliyyətini, dövlətin özünüidarə sistemini tənzimləyir, vətəndaş cəmiyyətinin formalaşmasının və inkişafının hüquqi təminatçısı qismində çıxış edir.

İqtisadi inkişaf tempinə adekvat olaraq insanların demokratik-siyasi şüurunda baş verən dəyişikliklər cəmiyyətin hüquqi bazasının əsasını, istinad mənbəyini təşkil edən Konstitusiyada bir sıra əlavə və dəyişikliklərin edilməsini şərtləndirdi. Azərbaycan xalqı öz hüquq və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər. 2000-ci ildən ölkəmizin beynəlxalq birliyə inteqrasiyasının güclənməsi, habelə hüquqi-siyasi sahələrdə əhəmiyyətli dəyişikliklər cəmiyyətin fundamental hüquqi əsasını təşkil edən Konstitusiyanın da təkmilləşdirilməsini zərurətə çevirdi. Məhz bu baxımdan, 2002-ci il avqustun 24-də ümumxalq referendumu əsasında Azərbaycan Konstitusiyasına edilmiş bir sıra əlavə və dəyişikliklər cəmiyyətin sosial sifarişindən, ictimai münasibətlər sisteminin xarakterindən irəli gəlirdi. Əsas Qanuna təklif olunan prinsipial dəyişikliklər proporsional seçki sisteminin ləğvini, fövqəladə hallarda Prezident səlahiyyətlərinin baş nazirə keçməsini, eləcə də Prezident seçkilərinin nəticələrinin səs çoxluğu "50+1" prinsipi ilə hesablanmasını nəzərdə tuturdu. Eyni zamanda konstitusiya islahatları hökumətin Milli Məclis qarşısında hesabatla çıxış etməsi, siyasi partiyaların ləğvi səlahiyyətlərinin Konstitusiya Məhkəməsindən alınaraq ümumi yurisdiksiyalı məhkəmələrə verilməsi, alternativ hərbi xidmət növünün formalaşdırılması və Ali Məhkəmənin qanunvericilik təşəbbüsü ilə çıxış etmək səlahiyyətinə malik olması, vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək imkanının yaradılması kimi vacib məsələləri əhatə edirdi. Bu və digər dəyişikliklər cəmiyyətin inkişafına, Konstitusiyanın, qanunların, bütövlükdə hüquq sisteminin təkmilləşdirilməsinə, demokratikləşdirmə proseslərinin dərinləşdirilməsinə və insan hüquqlarının daha səmərəli müdafiə edilməsinə xidmət etmiş, Əsas Qanunun mühüm əhəmiyyətə malik yeni müddəalarla zənginləşməsinə səbəb olmuşdur.

Referendumun nəticəsi kimi, insan hüquq və azadlıqlarının daha səmərəli həyata keçirilməsi, İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutunun təşkili və fəaliyyəti ilə bağlı bir sıra mühüm müddəalar Konstitusiyada əksini tapmışdır. İlk dəfə olaraq hər kəsin onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin normativ aktlarından, məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədilə şikayət vermək hüququ təsbit olunmuşdur.

Referendum aktı layihəsində əksini tapmış əlavə və dəyişikliklər mahiyyət etibarilə ölkəmizin çağdaş inkişaf dinamikası, cəmiyyətin şüur səviyyəsi, modernləşmə strategiyasının tələbləri ilə uzlaşır. Konstitusiyaya təklif edilən 29 əlavə və dəyişikliyin əksəriyyəti insan hüquq və azadlıqları ilə bağlıdır və bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən siyasətin humanist səciyyə daşıdığını göstərir.

Konstitusiyanın 12, 15 və 17-ci maddələrinə təklif edilən əlavə və dəyişikliklər əsasən Azərbaycanın üstünlük verdiyi liberalizm xəttinin xarakterindən, dövlətin sosial yönümlü siyasətinin daha dolğun, hərtərəfli təmini, habelə uşaq hüquqlarının qorunması istəyindən irəli gəlir. Məsələn, 12-ci maddəyə təklif olunan dəyişikliyə görə, insan və vətəndaş hüquqları və azadlıqları ilə yanaşı, "Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi" də dövlətin ali məqsədi kimi təsdiq edilir. 15-ci maddənin II hissəsinə təklif edilən dəyişikliyə görə, Azərbaycan dövləti bazar münasibətləri əsasında "sosial yönümlü" iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verilir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilmir. Konstitusiyanın 96-cı maddəsinə (Qanunvericilik təşəbbüsü hüququ) təklif edilən dəyişiklikdə, hər 40 min Azərbaycan Respublikası vətəndaşına qanunvericilik təşəbbüsü hüququnun verilməsi xalqın konstitusion hüquqlarının daha səmərəli təminatına və daha da genişləndirilməsinə xidmət edir.

Ümumilikdə, "Azərbaycan Respublikası Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Referendum Aktı demokratik xarakteri, insan hüquq və azadlıqlarına maksimum təminat yaratması ilə cəmiyyət tərəfindən də rəğbətlə dəstəklənir. Xalqımız özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayır, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayır, suveren hüququndan istifadə edir, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qoruyur.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika .- 2024.- 24 avqust (№ 181).- S.1;10.